QANUN № 07 (381), 2026, s. 75-79

**Rəhimova Mələkxanım Seyfulla qızı,**
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müəllimi
E-mail: melek.rahimovafff@gmail.com
ORCID: https://orcid.org/0009-0009-3879-361X

**UOT 342.7**
**DOI: https://doi.org/10.30546/2218-9130.007.2026.9079**

# LAYİQLİ HƏYAT HÜQUQUNUN DEFİNİSİYASINA DAİR YANAŞMALARIN TƏHLİLİ

***Açar sözlər:*** *layiqli həyat hüququ, layiqli həyat səviyyəsi, universal standartlar, hüququn definisiyası, nəzəriyyə, hüquqi təhlil, sosial hüquqlar, hüquqşünas alim, məzmun.*

***Ключевые слова:*** *право на достойную жизнь, достойный уровень жизни, универсальные стандарты, определение права, теория, правовой анализ, социальные права, правовед, содержание.*

***Keywords:*** *right to a decent life, decent standard of living, universal standards, definition of law, theory, legal analysis, social rights, legal researcher, content.*

## *I. Giriş*

Hüquq ədəbiyyatında kifayət qədər tədqiq olunmamış layiqli həyat hüququnun universal normalarda da dəqiq konsensusunun mövcud olmaması müvafiq hüququn məzmunu və definisiyasına dair müxtəlif elmi mövqelərin meydana çıxmasına səbəb olmuşdur. Çünki hər müəllif mənsub olduğu dövlətin hüquq doktrinasına uyğun olaraq bu hüquqa yanaşır və onun mövcud standartlarını məhz bu kontekstdən müəyyənləşdirir.

Bu məqalədə beynəlxalq insan hüquqları hüququnun mənbələrinə dair tənzimləmə ortaya qoyan Beynəlxalq Məhkəmənin Statutunun 38-ci maddəsində nəzərdə tutulmuş mənbələrdən çıxış edərək layiqli həyat hüququnun normativ məzmununun və hüquqi əsaslarının müəyyənləşdirilməsinə cəhd göstərilir. Belə ki, Universal sənədlər sırasında yer alan 1948-ci il tarixli Ümumdünya insan hüquqları Bəyannaməsi, 1966-cı il Sosial, iqtisadi və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt, Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 1979-cu il Konvensiyası, Uşaq hüquqları haqqında 1989-cu il Konvensiyası və s. sənədlər layiqli həyat hüququnu unikal səviyyədə tanısa da, onların heç birində bu hüququn məzmunu normativ qaydada tənzimlənməmişdir. BMT Komitələri tərəfindən verilmiş Ümumi Şərhlər və Hesabatlar da qismən natamamlıq göstərir. Əsas mənbə kimi istinad etdiyimiz beynəlxalq adət normaları isə bu hüququ daha çox insan ləyaqəti kontekstindən yanaşaraq işgəncə, qeyri-insani və ləyaqəti alçaldan hərəkətlərdən qorunmaq kimi müəyyən edir. Yumşaq hüquq normalarında geniş mənbəyə rast gəlinsə də, lakin onların tövsiyə xarakterli olması səbəbindən layiqli həyat hüququn məzmununa dair vahid fikir irəli sürməkdə çətinlik çəkirik. Regional insan hüquqları məhkəmələri öz presedentlərində layiqli həyat hüququna dair geniş istinada yol versələr də, lakin onların müxtəlif regionlar üzrə fərqlilik göstərdiyinin şahidi olu-

ruq. Belə olan halda layiqli həyat hüququna dair vahid fikir irəli sürmək üçün subsidiar mənbə kimi beynəlxalq hüquq alimlərinin əsərlərini araşdırmağımız məqsədəmüvafiq olardı. Habelə tədqiqatın səmərəliliyi baxımından regionlar və hüquq sistemləri üzrə tənzimləmələrə də diqqət yetirilməlidir.

E.V.Baklanova müxtəlif dövlətlərdə hüquq mənbələrinin müqayisəli təhlilini apararaq layiqli həyat hüququnun məzmununu təşkil edən mərkəzi ideyanın yarandığı andan dəyişməz qaldığını düşünür. Onun fikrincə, şəxsin layiqli mövcudluğunu təmin edən dövlət siyasəti, bu hüququn tanınmasının mənşəyi, dövlətin onu təmin etmək üçün üzərinə götürdüyü öhdəliklər və s. motivlərlə əlaqələndirilərək müxtəlif mədəniyyətlər kontekstində spesifiklik əldə edir [7].

### *II. Layiqli həyat hüququnun məzmununa dair təsnifat*

Fikrimizcə, layiqli həyat hüququnun definisiyasına dair fikirləri ümumiləşdirərkən onları aşağıdakı qruplar üzrə sistemləşdirə bilərik:

Birinci qrup müəlliflər layiqli həyat hüququnu mülki hüquqlar kontekstində müəyyən edirlər. Onlar müvafiq hüququn məzmununu ləyaqətin konstitusiya kateqoriyasının təşkil etdiyini qeyd edir, onu mütləq hüquq hesab edilən yaşamaq hüququnun elementi olduğunu müdafiə edir, ləyaqət hüququ, yaşamaq hüququ və ehtiyacdan azad olmaq hüququ olduğunu irəli sürürlər [6]. Müəlliflərdən V.N. Barsukova onun əsasını insanın yaşamaq və ləyaqət hüququnun birlikdə təşkil etdiyi fikrini müdafiə edir [8]. Bəzi müəlliflər isə layiqli həyat hüququna mülki və siyasi hüquqları özündə birləşdirən birinci nəsil insan hüquqlarını daxil edirlər [10].

Tədqiqatçılardan V.N. Barsukova layiqli həyat termininin təhlilini apararaq onun özündə ləyaqətli həyat və layiqli mövcudluq anlayışlarının qarışıqlığını ehtiva etdiyi qənaətinə gəlir, onun məzmununda tamamilə utilitar yanaşmalardan tamamilə idealist yanaşmalara qədər fərziyyələrin irəli sürüldüyünü qeyd edir və meyarlar sistemini iki qrupa ayırır:

- Layiqli, kifayət qədər, keyfiyyətli və adekvat həyat səviyyəsi kimi kateqoriyaları ehtiva edən dövlətin fərd qarşısında öhdəlikləri;
- Şəxsin ləyaqətlə yaşamaq istəyini təmin edən şəxsi davranışları [8].

İkinci qrup müəlliflər layiqli həyat hüququnu Bismarkın sosial nəzəriyyəsi ilə əlaqələndirərək sosial-iqtisadi hüquqlar aspektindən tədqiq edirlər. Onların fikrincə, insanın həyat keyfiyyəti birbaşa olaraq onun maddi yaşantısı ilə əlaqədardır. Onlar layiqli həyat hüququnun məzmununa ikinci nəsil insan hüquqlarına aid edilən sosial hüquqların hamısını daxil edərək həmin hüquqlar sahəsində dövlət tənzimləməsini labüd hesab edirlər. Yerli hüquq alimləri də bu qrupa aid edilərək layiqli həyat hüququnu dövlətin sosial və iqtisadi inkişaf səviyyəsi və müvafiq sahədəki hüquqlarla dəyərləndirirlər. Onlar layiqli həyat hüququnu sosial-iqtisadi və mədəni hüquqların vəhdəti olduğunu qeyd etsə də, lakin mütləq əksəriyyət onu məhz sosial hüquqlar kontekstindən təhlil etmişdir. Əksər müəlliflər bu hüququ sırf sosial sferada həyata keçirilən hüquqların cəmi kimi təhlil edir [1, s. 15], bəziləri fiziki toxunulmazlığın məzmununa aid edirlər [3, s. 2].

Üçüncü qrup müəlliflər layiqli həyat hüququnu insanın iqtisadi vəziyyəti ilə əlaqələndirirlər. Onlar bu hüququn birbaşa olaraq əhalinin pul gəlirləri göstəriciləri ilə müəyyənləşdiyini iddia edirlər. Sırf maddi və iqtisadi baxımdan yanaşıldıqda isə bu hüquq müvafiq cəmiyyətin yoxsulluq həddinin üstündə yaşamasını nəzərdə tutur. Dünya Bankı bu sahədə aparılan təhlillər nəticəsində bu qənaətə gəlmişdir ki, insanların minimum qidalanma standartını və digər əsas ehtiyacları ödəmək üçün lazım olan xərclər və əlavə məbləğə sahib olması cəmiyyətin dəyərini əks etdirir və ölkədən ölkəyə dəyişir [5].

Dördüncü qrup müəlliflər isə layiqli həyat hüququnun məzmunun insanlara nəzərən nis-

bi xarakterli olduğunu əsas gətirərək müvafiq məzmuna mülki, sosial, iqtisadi, mədəni hüquqlarla bərabər yeni nəsil insan hüquqlarını da aid edirlər [9]. Onlar bunu haqlı olaraq cəmiyyətin davamlılıq və dayanıqlılıq aspekti, elm və texnikanın inkişaf dinamikası, insan tələbatlarının maddi aspektlərdən daha çox mənəvi aspektlərə yönəlməsi ilə əlaqələndirirlər [4].

Müvafiq məzmuna indiyədək ənənəvi xarakter almış adekvat qida, təhlükəsiz su, sağlamlıq, adekvat yaşayış yeri, layiqli iş, sosial müdafiə hüquqları ilə yanaşı, tərəfimizdən bu elementlər sırasına ilk dəfə daxil edilmiş layiqli qayıdış hüququ, sağlam ətraf mühit hüququ, İnternet əlçatanlığı hüququ, ana südü hüququ, adekvat geyim, virtual ünsiyyət – psixi sağlamlıq hüquqları da yer almaqdadır.

### *III. Regionlar üzrə layiqli həyat hüququna dair yanaşmalar*

Qərb hüquq ədəbiyyatlarında layiqli həyat səviyyəsi cəmiyyətin firavan mövcudluğunun zəruri şərti qəbul edilərək rasional xarakter daşıyır və digər təbii hüquqlarla birlikdə şəxsin, cəmiyyətin və hüququn məhvinin başladığı və bitdiyi həddi təmsil edir. Şərq hüquq sistemində layiqli həyat hüququnun məzmunu göstərilməsə də, dolayı yolla maddi və mənəvi həyatın keyfiyyətinə görə dövlət məsuliyyəti ideyasına sadiq qalınır. Müsəlman hüquq sistemində layiqli həyat hüququ dini-etik doktrina çərçivəsində həyata keçirilərək dindarlıq rütbəsinə yüksəldilir. Rusiyada bu hüquqi ideya ilk dəfə XIX əsrin sonlarında yaranmış və Qərb kimi tamamilə rasionallıqla əlaqələndirilmişdi. Rus tədqiqatçıları layiqli həyat hüququnu əxlaq normaları ilə əlaqələndirilir ki, burada da dövlətin bütün üzvlərin layiqli yaşayışını təmin etmək öhdəliyini öz üzərinə götürməsi töhfə verib-verməməsindən asılı olmayaraq təbii hesab olunur. AR qanunvericiliyində müvafiq hüquq vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsinə istiqamətlənərək dövlətin ali məqsədi hesab olunur və bütün dövlət siyasəti həmin hüququn realizəsinə yönəlir.

Layiqli həyat hüququnun məzmunu regionlar üzrə fərqli cərəyan edərək Avropada DİM məqsədləri, Avropa İttifaqının ətraf mühit, sosial idarəetmə və insan hüquqları normalarının mühüm aspektlərini birləşdirir və İnsan Hüquqları üzrə Avropa Məhkəməsi presedentləri əsasında şərh edilir. Avroregionda ona daha çox işgəncə, ləyaqəti alçaldan və qeyri-insani rəftarın qadağan edilməsi, ailə və şəxsi həyat hüququ aspektindən yanaşılır. Amerika regionunda isə sosial hüquqların yaşamaq hüququna birbaşa inteqrasiyası prosesinin şahidi oluruq. İnsan Hüquqları üzrə Avropa Məhkəməsi, Amerika İnsan Hüquqları və Afrika İnsan Hüquqları Məhkəmələrinin presedent qərarlarında məsələyə yaşamaq hüququ kontekstindən ləyaqətlilik çərçivəsində yanaşılması beynəlxalq normaları və dünya dövlətlərini layiqli həyat hüququnu yenidən gözdən keçirərək normativ aktlarda tənzimləməyə və mübahisələrə yeni tendensiyalar əsasında baxmağa vadar edir. Məsələnin bu istiqamətdə qismən tənzimlənməsinə isə yalnız bir neçə dövlətin qanunvericilik sistemi və milli məhkəmə təcrübəsində rast gəlirik. Halbuki, həyatı qorumaq vəzifəsi həm də cəmiyyətdə həyata birbaşa təhlükə yaradan və ya fərdlərin ləyaqətlə yaşamaq hüququndan istifadə etməsinə mane ola biləcək ümumi şəraiti həll etmək üçün müvafiq fəaliyyətin həyata keçirilməsindən ibarətdir. Həmin adekvat şərtlərin həlli tədbirlərinə insanların qida, su, sığınacaq, səhiyyə, elektrik enerjisi və sanitariya [2, para. 26], geyim, dədə-baba torpaqlarına qayıtmaq, İnternet əlçatanlığı və s. kimi vacib tələbatlara təxirə salınmadan çıxışını təmin etmək üçün nəzərdə tutulmuş tədbirlər aid edilir.

Müxtəlif regionlar və hüquqi nəzəriyyələr çərçivəsində bu hüquqa fərqli yanaşmaların mövcudluğu milli hüquq doktrinalarında da onun məzmununa dair vahid mövqenin formalaşmasını çətinləşdirir. Bunun nəticəsidir ki,

Danimarka, İsveç, Finlandiya kimi dövlətlər sosial-iqtisadi hüquqların məhkəmə nəzarətinə əsaslanmır, bunun əksinə sosial-demokrat partiyalar və həmkarlar ittifaqları çərçivəsində sosial rifah dövləti yaratmağa çalışırlar. Müasir dövrdə vətəndaş cəmiyyəti əsas sosial-iqtisadi hüquqların səmərəli olması üçün təkmil alternativ institutlara, norma və təcrübələrə malikdir. İslandiya kimi ölkələr iqtisadi və sosial hüquqların tənzimləməsini iştirak büdcəsi, gücləndirilmiş birbaşa demokratiya, ekoloji nəzarət və ətraf mühitin qorunması ilə bağlı yeni normaları əlaqələndirmişdir.

## *IV. Nəticə*

Tədqiqatın yekunu olaraq qeyd edə bilərik ki, araşdırdığımız bütün müəlliflər və regional tənzimləmələr tərəfindən irəli sürülən tədqiqatlarda layiqli həyat hüququnun dəqiq çərçivələrinin, standartlarının və definisiyasının mövcudluğunu söyləmək mümkün deyil. Müvafiq müəlliflərin əsərlərində layiqli həyat hüququ məzmunca oxşar olan mülki və sosial hüquqlar sistemində araşdırılır. Bununla belə, biz Barsukovanın fikrinə tərəfdar çıxaraq layiqli həyat hüququnun əsasının yaşamaq və ləyaqət hüquqlarının birlikdə təşkil etdiyini düşünürük. Lakin digər müəlliflərin iddia etdiyi kimi, layiqli həyat hüququnun sosial, mütləq, təbii hüquqlar və iqtisadi göstəricilərin yalnız hər hansı birindən ibarət olması fikrini isə inkar edirik. Biz yuxarıda təhlil etdiyimiz mütəfəkkirlərin fikirlərini ümumiləşdirərək vahid ideya irəli sürürük: *Layiqli həyat hüququ ləyaqətlilik çərçivəsində şəxsi, siyasi, sosial, mədəni və yeni hüquqların yaşamaq hüququna inteqrasiyası prosesində ərsəyə gələn kompleks hüquq institutudur*. Bununla belə, Balkanovanın şəxsi motivlərə dair nəticələrini də inkar etmədən layiqli həyat hüququnun nisbi xarakter daşıdığını təsdiqləyirik. Məzmuna dair təhlillərə əsasən belə qənaətə gəlmək olar ki, bu mövzu olduqca mübahisəli olmaqla bərabər, hüquqi tədqiqatlarda az araşdırılmışdır. Layiqli həyat hüququnun dəqiq definisiyasının müəyyən olunmasının başlıca şərti bu kompleks sistemə daxil olan hüquq elementlərinin müəyyənləşdirilməsidir. Lakin bununla yanaşı qeyd edilməlidir ki, layiqli həyat hüququnun hansı hüquqi elementlər əsasında müəyyən edilməsindən və tənzimlənməsindən asılı olmayaraq, bu hüquq insanların rifah şəraitində yaşamaq imkanını ifadə edir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. Əliyev, M.N. Layiqli həyat səviyyəsinə olan hüquq vətəndaşların əsas hüquqlarından biri kimi // Bakı Universitetinin xəbərləri, – 2021. №01 – s. 15-21.

2. Human Rights Committee. General comment No. 36 (2018) on article 6 of the International Covenant on Civil and Political Rights, on the right to life: [elektron resurs] – URL: https://www.ohchr.org/sites/default/files/Documents/HRBodies/CCPR/CCPR_C_GC_36.pdf

3. Mary, B., Clerico, L. The Right to Dignified Living Conditions and the Position of Vulnerability in the Jurisprudence of the Inter-American Court Mary Beloff and Laura Clérico: [elektron resurs] – URL: https://openyls.law.yale.edu/bitstream/handle/20.500.13051/17504/SELA14_BeloffClerico_CV_Eng.pdf?sequence=2

4. Rahimova, M.S. is Internet access a unique right, an element of the right to a dignified life, or a means that ensures the right to a dignified life? // Науковий вісник Ужгородського Національного Університету, – 2025, pp. 401-406.

5. World Bank Studies: [elektron resurs] – URL: https://openknowledge.worldbank.org/collections/6759c8b5-34f4-54c3-b198-934251b8ee5e?spc.sf=dc.date.issued&spc.sd=DESC

6. Арбузов, С.Ю. Конституционное право человека на достойную жизнь и его место в системе прав человека // Грамота, – 2011. № 8(14). Ч. VI. – с. 21- 24.

7. Бакланова, Е.В. Истоки признания права на достойную жизнь в контексте разных правовых культур: [elektron resurs] – URL: https://wiselawyer.ru/poleznoe/16113-istoki-priznaniya-prava-dostojnuyu-zhizn-kontekste-raznykh

8. Барсукова В.Н. Право человека на достойную жизнь: общая характеристика: [elektron resurs] – URL: https://lexandbusiness.ru/view-article.php?id=7068

9. Вихрова, А. В. Право на достойный уровень жизни: международно-правовые основы обеспечения // Новизна. Эксперимент. Традиции, – 2026. – Т. 12. – №1(33). с. 101-112.

10. Салихова, И.С. Право человека на достойную жизнь как юридическая категория // Пробелы в российском законодательстве, – 2009. №4, – с. 129-133.

**Рахимова Мелекханим Сейфулла гызы,**
преподаватель кафедры прав человека и информационного права ЮНЕСКО
юридического факультета Бакинского государственного университета

## АНАЛИЗ ПОДХОДОВ К ОПРЕДЕЛЕНИЮ ПРАВА НА ДОСТОЙНУЮ ЖИЗНЬ

### РЕЗЮМЕ

Исследование основано на анализе концепции, содержания и определения права на достойную жизнь, являющегося основным критерием оценки благополучия человека. Это право, точные рамки которого до сих пор не определены, изучается в различных контекстах, как в международных и национальных правовых доктринах, так и в работах правоведов. Это создает большие трудности как в определении права на достойную жизнь, так и в его реализации. В данном исследовании автор впервые попытался обобщить существующие подходы и систематизировать их на основе современных стандартов и динамики социального развития, а также предложил единое определение в этом направлении, обосновывая это тем, что развитие науки и техники не обошло стороной данную классификацию, и что наряду с материальными аспектами на формирование права на достойную жизнь влияют и моральные аспекты: право на достойную жизнь – это сложный правовой институт, возникающий в процессе интеграции личных, политических, социальных, культурных и новых прав в право на жизнь в рамках достоинства.

**Rahimova Malakkhanim Seyfulla,**
Lecturer, UNESCO Department of Human Rights and
Information Law Faculty of Law, Baku State University

## ANALYSIS OF APPROACHES TO THE DEFINITION OF THE RIGHT TO A DIGNIFIED LIFE

### SUMMARY

The study is based on the analysis of the concept, content and definition of the right to a decent life, which is the main measurement scale of people’s well-being. This right, the exact framework of which has not been determined, is studied from various contexts, both in international and national legal doctrines and in the works of legal researchers. This creates great difficulties in terms of both the definition of the right to a decent life and its realization. In this study, the author, for the first time, has tried to generalize existing approaches and systematize them based on modern standards and the dynamics of social development, and has put forward a single definition in this direction, justifying that the development of science and technology has not bypassed this classification, and that along with material aspects, moral aspects also affect the formation of the right to a decent life: The right to a decent life is a complex legal institution that arises in the process of integrating personal, political, social, cultural and new rights into the right to life within the framework of dignity.

**Redaksiyaya daxilolma tarixi: 28.06.2026**
**Təkrar işlənməyə göndərilmə tarixi: 17.07.2026**
**Çapa qəbul olunma tarixi: 17.07.2026**